■ Osman Fərmanoğlu

## Davası

Gedən gündən gələn günə boylanır
İçimizlə çölümüzün davası
Yavaş- yavaş, korun- korun qorlanır
Odumuzla külümüzün davası

Köhnə fikir təzəsinə qarışır,
Qarışqalar ömrümüzə daraşır
Üstə düşür, torpağın bir qarışır
Otumuzla gülümüzün davası

Yeri birdi həyatın boz üzündə
Ölçüsü var tərəzinin gözündə
Biri qalmaq, biri getmək üstündə
Daşımızla selimizin davası

Göy üzündə fırlağandı toza bax
Xəlvətlərə çəpər çəkir tozanaq
Qaçdı-qovdu, kimdi nəsə qazanan
Buludladı yelimizin davası.

*Osman*, bizi dövran edər darqursaq
Nə qədər ki gözü acdı bu qursaq
Gedər elə hansı işə baş vursaq
Canımızla könlümüzün davası